**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRMİN NAZİM qızı ƏLİYEVA**

# AİLƏ-MƏİŞƏT MÜNASİBƏTLƏRİ SAHƏSİNDƏ CİNAYƏTLƏRİN CİNAYƏT HÜQUQİVƏ KRİMİNOLOJİ ASPEKTLƏRİ

**5611.01 – «Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Cinayət hüququ və kriminologiya» kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor, əməkdar müəllim M.B.ƏHMƏDOV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor H.S.QURBANOV** |
| | **hüquq üzrə fəlsəfə doktoru M.D.SƏLİMOV** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının «Hüquqşünaslıq» kafedrası** |

Dissertasiya işinin müdafiəsi «_____» «_____________» 2018-ci il tarixdə saat «_____» Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş B/FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____» «______________» 2018-ci il tarixdə göndərilmişdir.

**B/FD. 02.013 Dissertasiya Şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent** **Ə.Q. MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Ailə-məişət münasibətləri sahəsində cinayətlərin geniş yayılması son illərdə cinayətkarlığın dinamikasının artımını şərtləndirən amillərdən birinə çevrilməklə ümumilikdə sosial-psixoloji iqlimin pisləşməsinə, məişət sahəsində neqativ hadisələrin yaranaraq dərinləşməsinə və daha da kəskinləşməsinə ciddi təsir edəcək səviyyəyə çatmışdır.

Son illərdə məişət zorakılığı və onunla bağlı problemlərin aktuallığı nəzərə alınaraq dünyanın müxtəlif ölkələrində hökumətlər və parlamentlər mütəmadi olaraq bu sahədə mövcud vəziyyəti müzakirə edir, problemlə bağlı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları tərəfindən dəyirmi masalar keçirilir, konfranslar təşkil edilir. Bütün bunlar məişət münasibətləri sahəsində baş verən münaqişələrin, o cümlədən məişət cinayətlərinin qarşısının alınmasının cəmiyyətimiz üçün tezliklə həlli zəruri olan vəzifələrdən biri olduğunu göstərir. Bu sahədə yaranan problemlərə göz yumulması neqativ hadisələrin, o cümlədən ailə-məişət cinayətlərinin geniş vüsət almasına, bu zaman vurulan maddi və mənəvi zərərin artmasına gətirib çıxarır.

Qəddarlıq, zorakılıq, təcavüzkarlıq məişətə, ailə münasibətlərinə, şəxsiyyətlərarası münasibətlər sahəsinə getdikcə daha çox dərəcədə nüfuz edir. BMT-nin statistikasına görə hər il dünyada 14 yaşına qədər olan iki milyon uşaq valideyn zorakılığından əziyyət çəkir, onların hər 10-dan biri dünyasını dəyişir, 2 min nəfəri intihar edir. Ekspert rəyləri, beynəlxalq təşkilatların məlumatları göstərir ki, dünyada hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalmış, hər 3 dəqiqədə, ən azı bir qadın öldürülmüş, hər il dünyada 3-4 milyon qadın həyat yoldaşları tərəfindən döyülmüşdür. Təsadüfi deyildir ki, dünya birliyi bu hadisəyə uyğun sosial-hüquqi qiymət vermiş, 2001-ci ildə İsveçrənin Lozanna şəhərində keçirilən Birinci Avropa kriminoloji konqresində ailə-məişət zorakılığı problemi təhlükəlilik dərəcəsinə görə mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi və terrorizmlə eyni bir sırada olduğunu göstərmişlər. Bu baxımdan ikinci minilliyin ilk illərində ailə-məişət münaqişələrinin və bu sahədə baş verən kriminal zorakılıq hallarının qarşısının alınması ilə bağlı sosial-psixoloji, kriminoloji və s. xarakterli problemlər kompleksi dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycanda da xüsusilə aktuallaşmışdır.



Ailə-məişət münaqişələrinin, bu zaman baş verən kriminal əməllərin sayının artması, cinayətkarlığın bu növündə bir sıra ciddi neqativ meyllərin müşahidə olunması probleminin elmi zəmin əsasında araşdırılması və həlli yollarının axtarışını zəruri etmiş, bu istiqamətdə elmi tədqiqatların aparılmasına sosioloqların, psixoloqların və təbii ki, hüquqşünasların, xüsusən də kriminoloqların marağını əhəmiyyətli dərəcədə artırmışdır.

Cinayətkarlığın struktur analizi göstərir ki, ailə-məişət sahəsində törədilən kriminal əməllər cinayətkarlığın ümumi həcmində son illərdə artma meyli ilə səciyyələnən əhəmiyyətli xüsusi çəkiyə malikdir. Bundan başqa, bu artım qəsdən adam öldürmə, sağlamlığa ağır və az ağır zərər vurma kimi şəxsiyyət əleyhinə cinayətlərin sayının artması ilə bağlıdır. Sosial, iqtisadi və digər ziddiyyətlərin kəskinləşdiyi müasir dövrdə dünyanın bir çox ölkələrində ailə-məişət cinayətkarlığının vəziyyətində arzuolunmaz kəmiyyət və keyfiyyət xarakterli meyllər yaranmış, bu növ kriminal əməllərin xüsusi çəkisinin artması qeydə alınmışdır. Bir sözlə ailə-məişət zorakılığı problemi yalnız Azərbaycan üçün deyil, digər ölkələr üçün də aktualdır.

Cinayətlərin statistikasının, məhkəmə-istintaq təcrübəsinin, xüsusi ədəbiyyatın təhlili müasir məişət cinayətlərinin bir sıra keyfiyyət xarakterli xüsusiyyətlərlə səciyyələndiyini göstərir: ailə-məişət sahəsində əvvəlcədən hazırlanan cinayətlərin qeydə alınması; qadınlar tərəfindən törədilən qəsdən adam öldürmə və sağlamlığa ağır zərər vurma kimi ağır cinayətlərin sayının və xüsusi çəkisinin artması; ailə-məişət cinayətlərini törədənlərin arasında qadınların xüsusi çəkisinin artması; ailə-məişət zəminində törədilən qəsdən adam öldürmə və sağlamlığa ağır zərər vurma kimi kriminal zorakılıq hallarının amansızlaşması, qəddarlaşması; odlu və soyuq silahdan istifadə etməklə törədilən məişət cinayətlərinin xüsusi çəkisinin artması; məişət cinayətlərinin dinamikası ilə spirtli içkilərə aludəçilik və narkomaniya arasında müəyyən asılılığın mövcudluğu; ailə-məişət cinayətkarları arasında daimi gəlir mənbəyi olmayan şəxslərin xüsusi çəkisinin yüksəlməsi; ailə-məişət zorakılığının latentlik dərəcəsinin olduqca yüksək olması və s.

Qeyd olunan amillər ailə-məişət cinayətləri adlandırılan kriminal əməllərin müstəqil kriminoloji tədqiqat obyekti kimi nəzərdən keçirilməsini, bu növ cinayətləri şərtləndirən səbəbiyyət kompleksinin sistemli şəkildə öyrənilməsini, məişət cinayətkarlığının profilaktikasına istiqa-

mətlənən ümumsosial və xüsusi-kriminoloji tədbirlər kompleksinin işlənib hazırlanması zəruriliyini şərtləndirir.

Bununla bağlı məişət cinayətlərini şərtləndirən amillər kompleksinin müəyyən edilməsi və bu əsasda qeyd olunan cinayətlərin qarşısının alınması problemlərinin elmi həlli aktuallıq və nəzəri-təcrübi əhəmiyyət kəsb edir.

Ailə-məişət cinayətlərinin qarşısının alınması kifayət qədər mürəkkəbdir ki, bu da məişət zorakılığının müxtəlif formalarının, xüsusən də cinsi, psixi və iqtisadi zorakılıq formalarının üzə çıxarılmasının, qeyd olunan cinayətlərin törədilməsinin səbəb və şəraitlərinin, determinantlarının müəyyən edilməsi çətinliyi və mürəkkəbliyi ilə yanaşı, həm də bu növ cinayətlərin profilaktikası sisteminin qeyri-təkmilliyindən, bu sahədə kompleks tədbirlərin, səmərəli qarşılıqlı əlaqəli fəaliyyətin hələ də təşkil edilməməsindən irəli gəlir.

Müasir dövrdə məişət cinayətkarlığını determinə edən yeni amillər yaranır. Bu növ cinayətlərin səbəbiyyət kompleksini təşkil edən sərxoşluq, tüfeylilik, fahişəlik, narkomaniya və s. kimi amillərin təsiri daha da dərinləşir, «məişət» cinayətkarlarını səciyyələndirən kriminoloji və sosial-psixoloji xarakteristikalar daha da pisləşir. Ailə-məişət cinayətkarlığı, onunla mübarizə xüsusiyyətləri, ailə-münaqişələri zəminində baş verən cinayətlərin sosial, iqtisadi, psixoloji və hüquqi fəsadlarının aradan qaldırılması və ya minimuma endirilməsi kompleks problemdir. Həmin amillər müasir şərait nəzərə alınmaqla ailə-məişət cinayətkarlığının sistemli kriminoloji tədqiqi və qarşısının alınması probleminin monoqrafik səviyyədə, yəni dissertasiya tədqiqatı çərçivəsində araşdırılması zəruriliyini şərtləndirir.

**Tədqiqat mövzusunun elmi işlənilmə dərəcəsi.** Məişət cinayətkarlığının kriminoloji tədqiqi ilə bir sıra tanınmış kriminoloq-alimlər bu və ya digər dərəcədə məşğul olmuşlar. Onların sırasında A.İ.Alekseyev, Y.D.Bluvşteyn, A.İ.Dolqova, K.E.İqoşev, D.A.Şestakov, İ.İ.Karpets, V.N.Kudryavtsev, N.F.Kuznetsova, E.F.Pobeqaylo, Y.İ.Qilinski, Q.M.Minkovski, A.B.Saxarov, A.M.Yakovlev, V.P.Revin, O.V.Starkov, S.B.Alimov, T.Q.Moşak və digərləri göstərilə bilər. Lakin bu problem qeyd olunan müəlliflər tərəfindən xüsusi olaraq nəzərdən keçirilməmiş, yalnız ona cinayətkarlıqla bağlı digər problemlərin araşdırılması zamanı diqqət yetirilib.



Son illərdə problemin sosial-psixoloji, cinayət-hüquqi və kriminoloji aspektləri ilə bağlı bir sıra dissertasiya işləri də yazılmışdır. Onların sırasında A.A.Axmatov (Ailədaxili cinayətkar davranış və Mordoviya Respublikasında onlara qarşıdurma, Sankt-Peterburq, 2008), M.V.Molçanova (Yeniyetmələrə münasibətdə ailədaxili cinayətkar zorakılıq: səbəbləri, meylləri, qarşıdurma, Sankt-Peterbuq, 2004), P.V.Şmarion (Yeniyetmələrə münasibətdə ailədə törədilən cinayətlərin kriminoloji xarakteristikası və qarşısının alınması, Tambov, 2010); A.A.Nikitina (Yeniyetmələrə münasibətdə məişət zorakılığının kriminoloji xarakteristikası və qarşısının alınması, Rostov, 2005); A.V.Meşkova (Ailə-məişət və asudə vaxt sahəsində narkotik sərxoşluq vəziyyətində törədilən cinayətlərin kriminoloji xarakteristikası və qarşısının alınması, N.Novqorod, 2008); V.İ.Şaxov (Ailədə zorakılıq: cinayət-hüquqi və kriminoloji aspektlər, İjevsk, 2003); A.D.Xamzayeva (Ailə münasibətləri sahəsində qadınlar tərəfindən törədilən zorakı cinayətlərin qarşısının alınması, Bişkek, 2006); V.A.Şakina (Qadın ailə zorakılığının qurbanı kimi, İrkutsk, 2002); A.N.Fateyev (Ailə zorakılığı: kriminoloji tədqiqat təcrübəsi, Moskva, 2001); K.A.Myasnikova (Müasir məişət cinayətkarlığının kriminoloji xarakteristikası və onun qarşısının alınması problemləri, Rostov, 2004); V.A.Kostyuba (Ailə-məişət münasibətləri sahəsində cinayətlərin kriminoloji analizi və qarşısının alınması, Xabarovsk, 2004); E.P.Kim (Məişət münasibətləri sahəsində cinayətkarlıq və onun qarşısının alınması, doktorluq dissertasiyası, Moskva, 2002); S.T.Axmedxanova (Ailədə qadınlar tərəfindən törədilən cinayətlərin kriminoloji xarakteristikası və onların profilaktikası problemləri, Moskva, 2013); B.Q.Tuqeblayeva (Qadınlara münasibətdə cinayətkar zorakılıq problemləri, Bişkek, 2005); O.N.İvlsyuk (Məişət münasibətləri sahəsində cinayətkarlıq: sosial nəticələr və onların minimumlaşdırılması, Moskva, 2007); M.Q.Malikova (Ailə-məişət münasibətləri sahəsində cinayətkarlığın kriminoloji xarakteristikası, Maxaçkala, 2006); L.A.Kolpakova (Ailədə zorakılıq: viktimoloji aspekt, məsuliyyətin diferensiasiyası və qanunvericilik texnikası məsələləri, Kazan, 2007); N.İ.Beltsov (Məişət və asudə vaxt sahələrində törədilən cinayətlərin kriminoloji analizi və qarşısının alınması, Moskva, 1996); A.P.Falin (Ailədə yeniyetmələrin həyatına qarşı törədilən cinayətlər sosial və kriminoloji problem kimi, Moskva, 2002) və digərlərinin monoqrafik tədqiqatlarını xüsusi olaraq qeyd etmək olar. Kriminal xarakterli ailə-məişət müna-

qişələrinin sosial-psixoloji, cinayət-hüquqi və kriminoloji aspektləri tam şəkildə öz həllini tapmamış, ailə-məişət cinayətkarlığının qarşısının alınması probleminin bir çox ümumsosial, xüsusi-kriminoloji, cinayət-hüquqi və viktimoloji istiqamətləri elmi-monoqrafik səviyyədə araşdırılmayıb.

Dissertasiya mövzusunun seçimini əsaslandırarkən Azərbaycan cinayət hüququ və kriminologiya elmində müasir günə qədər ailə-məişət cinayətlərinin kriminoloji xarakteristikası, bu növ kriminal zorakılığın səbəb və şəraitləri, cinayətkarın və zərərçəkənin şəxsiyyəti, ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin qarşısının alınması problemləri kompleks və sistemli-struktur yanaşma əsasında, monoqrafik səviyyədə, elmi-nəzəri və təcrübi aspektlərdən monoqrafik tədqiqat predmeti olmaması nəzərə alınmışdır.

Azərbaycanda ailə-məişət cinayətlərinin müasir vəziyyəti, strukturu və dinamikasının kriminoloji analizi, bu növ kriminal əməlləri şərtləndirən səbəb və şəraitlərin müəyyən edilməsi məişət cinayətkarlığının qarşısının alınması məsələlərinin kompleks sosial-psixoloji, kriminoloji və cinayət – hüquqi tədqiqinin zəruriliyinə dəlalət edir.

Apardığımız araşdırma və təhlil göstərir ki, ailə-məişət zorakılığına qarşıdurmanın, bu neqativ sosial-hüquqi hadisənin qarşısının alınmasının səmərəli təşkili üçün ailə-məişət münaqişəsi zəminində törədilən cinayətlərin səciyyəvi əlamətlərinin üzə çıxarılması; ailə-məişət münaqişəsi zəminində törədilən cinayətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin sistemli təhlili, mövcud neqativ meyllərin və onların inkişafı dinamikasının elmi-analitik təhlilinin aparılması, bu növ cinayətlərin kriminoloji tədqiqinin müasir metodoloji bazasının və onun təkmilləşdirilməsi imkanlarının müəyyən edilməsi; kriminal xarakterli ailə-məişət zorakılığının inkişafına təkan verən sosial ziddiyyətlərin, iqtisadi və mənəvi-psixoloji determinantların, neqativ xarakterli vərdişlərin və ənənələrin, təhrif olunmuş dəyərlərin yaranma səbəblərinin öyrənilməsi; ailə-məişət təcavüzkarının kriminoloji təsnifatının işlənilməsi, ailə zorakılığının qurbanlarının viktimoloji xarakteristikasının verilməsi, dövlət orqanlarının, habelə bu sahədə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının fəaliyyətinin analizi və onların məişət zorakılığının profilaktikası sahəsində səmərəli fəaliyyətinə imkan və şərait yaradan perspektiv istiqamətlərin müəyyən edilməsi zəruridir.



**Tədqiqatın obyekti.** Dissertasiya tədqiqatının obyektini ailə-məişət münasibətləri sahəsində cinayətlərin kriminoloji tədqiqi zamanı yaranan, ümumsosial və xüsusi-kriminoloji profilaktikası sahəsində təşəkkül tapan ictimai münasibətlər təşkil edir.

Tədqiqatın predmeti olaraq aşağıdakılar çıxış edir:

- ailə-məişət münasibətləri zəminində törədilən cinayətlərin qarşısının alınması sahəsində beynəlxalq və milli standartlar;
- Azərbaycanda məişət cinayətkarlığının vəziyyəti, strukturu və dinamikası;
- ailə-məişət münasibətləri zəminində cinayət törədən şəxslərin və bu cinayətlərdən zərər çəkənlərin şəxsiyyəti;
- ailə-məişət münasibətləri sahəsində cinayətləri doğuran hallar, səbəb və şəraitlər, onları determinə edən amillər;
- ailə-məişət cinayətlərinin qarşısının alınması üçün həyata keçirilən ümumsosial və xüsusi-kriminoloji profilaktika.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya tədqiqatının əsas məqsədi ailə-məişət zorakılığının müxtəlif forma və növlərinin və son illərdə cinayətkarlığın strukturunun əsas elementlərindən birinə çevrilmiş müasir ailə-məişət cinayətkarlığının kriminoloji tədqiqindən, ailə-məişət zəminində törədilən bu kriminal əməllərin səbəb və şəraitlərinin, determinantlarının elmi-kriminoloji analizindən, ailə-məişət münasibətləri sahəsində cinayət törədənlərin şəxsiyyətinin sosial-psixoloji və kriminoloji xüsusiyyətlərinin üzə çıxarılmasından, bu növ cinayətlərdən zərərçəkənlərin viktimoloji xarakteristikasının verilməsindən, ailə-məişət cinayətkarlığının qarşısının alınmasına istiqamətlənən ümumsosial və xüsusi-kriminoloji profilaktikası sisteminin işlənib hazırlanmasından, ailə-məişət cinayətlərinə görə məsuliyyət müəyyən edən cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə yönələn təkliflərin və tövsiyələrin formulə edilməsindən ibarətdir.

Monoqrafik tədqiqatın qeyd olunan bu məqsədlərinə nail olunması isə öz növbəsində bir sıra nəzəri və təcrübi vəzifələrin həlli ilə sıx bağlıdır. Onlara aid edilir:

- ailə-məişət zorakılığı və onun fiziki, psixi, cinsi və iqtisadi formalarının, ailə-məişət cinayətlərinin məzmununun, əsas xüsusiyyətlərinin və əlamətlərinin tədqiqi, bu sahədə bəzi anlayışların dəqiqləşdirilməsi, ailə-məişət zorakılığının əsas əlamətlər kompleksinin sistemləşdirilməsi;

- ailə-məişət münasibətləri sahəsində cinayətlərin ictimai təhlükəliliyi, onlara görə cinayət məsuliyyəti məsələlərinin təhlili;

- Azərbaycanda və xarici ölkələrdə ailə-məişət zorakılığına görə məsuliyyət müəyyən edən qanunvericiliyin müasir vəziyyəti, bu sahədə mövcud problemlərin öyrənilməsi;

- beynəlxalq təşkilatlar səviyyəsində məişət zorakılığının, xüsusən də qadınlara və uşaqlara münasibətdə törədilən zorakılıq hallarının qarşısının alınmasına istiqamətlənmiş beynəlxalq və regional konvensiyaların, BMT, Avropa Şurası və s. beynəlxalq və regional təşkilatlar tərəfindən qəbul edilmiş beynəlxalq normativ hüquqi aktların müqayisəli-hüquqi təhlili;

- ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin kriminoloji xarakteristikasının verilməsi;

- müasir ailə-məişət cinayətkarlığının vəziyyəti, strukturu və dinamikasının kriminoloji analizi, əsas meyllərin müəyyən edilməsi;

- ailə-məişət münasibətləri sahəsində kriminal əməlləri törədən cinayətkarların şəxsiyyətinin kriminoloji, sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsi; ailə-məişət cinayətkarının kriminoloji təsnifatının, tipik sosial-psixoloji və kriminoloji «portretinin işlənilməsi;

- ailə-məişət cinayətkarlığı sahəsində zərərçəkənlərin viktimoloji xarakteristikası;

- ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin səbəb və şəraitlərin, determinantların müəyyən edilməsi;

- məişət sahəsində törədilən cinayətlərin qarşısının alınmasının ümumsosial və xüsusi-kriminoloji tədbirlər kompleksinin işlənib hazırlanması;

- ailə-məişət münasibətləri sahəsində cinayətlərin profilaktikasının viktimoloji aspektlərinin öyrənilməsi;

- məişət münasibətləri sahəsində kriminal zorakılığın qarşısının alınmasında daxili işlər orqanlarının yeri və rolunun müəyyən edilməsi;

- ailə-məişət münasibətləri sahəsində kriminal zorakılığa görə məsuliyyət müəyyən edən cinayət qanunvericiliyinin təkmilləşdirilməsi imkanlarının araşdırılması.

**Dissertasiya tədqiqatının metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasını ümumelmi yanaşma olan dialektik metod, sistemli analiz, habelə idrakın bir sıra digər ümumelmi və xüsusielmi metodları təşkil etmişdir: müşahidə, müqayisəli-hüquqi, tarixi-hüquqi analiz, ümumiləşdirmə, statistik-kriminoloji analiz, normativ-hüquqi təhlil, sosioloji sorğu və s.



**Tədqiqatın normativ bazası** olaraq Azərbaycan Respublikasının Konstitusiyası, cinayət və cinayət-prosessual, mülki və mülki-prosessual qanunvericilik, Azərbaycan Respublikasının «Məişət zorakılığının qarşısının alınması haqqında» Qanun, digər qanunlar və normativ hüquqi aktlar, habelə məişət zorakılığının qarşısının alınması və aradan qaldırılması məsələlərinə həsr olunmuş beynəlxalq-hüquqi sənədlər, konvensiyalar, ailə-məişət zorakılığının qarşısının alınması üzrə cinayət-hüquqi aspektləri tənzimləyən xarici ölkələrin qanunvericiliyi və s. çıxış edir.

**Tədqiqatın empirik bazasını aşağıdakılar təşkil edir:**

- Ailə-məişət münasibətləri sahəsində cinayətlərin vəziyyəti və strukturu haqqında 2010-2016-cı illər üzrə statistik məlumatlar;

- Azərbaycan Respublikasının Bakı və Gəncə Ağır Cinayətlər Məhkəməsi, habelə bir sıra rayon məhkəmələri (Abşeron, Qaradağ, Sabunçu) tərəfindən baxılan 200 cinayət işinin materialları;

- Bakı, Sumqayıt, Gəncə, həmçinin respublikanın digər rayonlarında ailə-məişət cinayətlərinin qarşısının alınması sahəsində mövcud vəziyyət və problemlərlə bağlı xüsusi anket əsasında əhalinin müxtəlif təbəqələrinin nümayəndələri arasında keçirilən sorğuların nəticələri (sorğuya 500 nəfər cəlb edilib);

- ailə zorakılığı qurbanları ilə təmasda olan və onlara yardım göstərən krizis mərkəzlərinin əməkdaşları, qeyri-hökumət təşkilatlarının nümayəndələri arasında keçirilən sorğunun nəticələri;

- ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin qarşısının alınması səmərəliliyinin yüksəldilməsi, bu növ cinayətlərin qarşısının alınması üzrə təşkilati, kriminoloji və digər əsasların təkmilləşdirilməsi məsələləri üzrə ekspertlər qismində çıxış edən hüquqşünas-alimlər, habelə daxili işlər, prokurorluq orqanlarının əməkdaşları, hakimlər arasında aparılan sorğuların nəticələri və s.

**Dissertasiya tədqiqatının elmi yeniliyi.** Dissertasiya tədqiqatının elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan cinayət-hüququ və kriminologiya elmində ailə-məişət münasibətləri sahəsində törədilən cinayətkarlıq problemi, onun vəziyyəti, strukturu və dinamikası, cinayətkarın və zərərçəkənin şəxsiyyəti, bu növ kriminal əməlləri doğuran hallar, səbəb və şəraitlər, amillər kompleksi, habelə ailə-məişət cinayətkarlığının qarşısının alınmasına istiqamətlənmiş ümumsosial, xüsusi-kriminoloji və

viktimoloji profilaktika ilə bağlı problemlər sistemli şəkildə, elmi-nəzəri və praktiki aspektlərdən araşdırılmış, bu sahədə profilaktik fəaliyyətin səmərəliliyinin yüksəldilməsi məqsədilə bir sıra təkliflər və tövsiyələr, o cümlədən cinayət qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı konkret təkliflər formulə edilərək əsaslandırılmışdır.

Müdafiəyə aşağıdakı **yeni elmi müddəalar** təqdim olunur:

1. Ailə-məişət zorakılığı və müasir ailə-məişət cinayətkarlığının müəllif anlayışı:

- Ailə-məişət zorakılığı – bir ailə üzvünün, qohumun və ya qonşunun digərinə qarşı, zərərçəkənin iradəsinə zidd və belə hərəkətlərin faktiki nəticələrindən asılı olmayaraq insana hüquqazidd, ictimai təhlükəli, fiziki, psixi, seksual və ya iqtisadi təsir formasında həyata keçirilən, eskalasiyaya sabit meyllə xarakterizə olunmuş, zaman keçdikcə təkrarlanaraq daha da intensivləşən və sosial təhlükəliliyi daim yüksələn sosial-hüquqi hadisədir;
- Müasir ailə-məişət cinayətkarlığı – ailə-məişət münasibətləri üçün xarakterik olan motivasiyanın, həmçinin müasir makro və mikromühit üçün səciyyəvi determinantların, kriminogen amillərin daşıyıcısı, cinayətkar və zərərçəkən arasında qohumluq, qonşuluq və s. ailə-məişət xarakterli qarşılıqlı əlaqələrin və şəxsiyyətlərarası münasibətlərin mövcudluğundan irəli gələn, bir qayda olaraq məişət şəraitinin fiziki məkanında (qeyri-istehsal ərazisində, işdən kənar vaxtda) ailə-məişət münaqişələri və ziddiyyətləri zəminində törədilən, fiziki, mənəvi və maddi zərərlə və ya ictimai qaydanın pozulması ilə nəticələnən, zorakılığın fiziki, psixi, seksual və iqtisadi formaları vasitəsilə həyata keçirilən, həyat, sağlamlıq, cinsi toxunulmazlıq, şəxsiyyətin azadlığı, şərəf və ləyaqəti, ictimai qayda əleyhinə zorakı cinayətlərin sistemli məcmusudur.

2. Kriminoloji nöqteyi-nəzərdən ailə zorakılığı üçün səciyyəvi olan əlamətlər qismində müəyyən edilmişdir: zorakı hərəkətlər daha çox qadınlara və uşaqlara münasibətdə törədilir; psixi və fiziki zorakılıq halları daha geniş yayılmışdır; təcavüzkarlar qismində yadlar deyil, qohumlar, yaxın adamlar, qonşular çıxış edir; ailə-məişət zorakılığı – təkrarlanan hadisədir; zərərçəkənlər və qohumlar polisə müraciət etməyərək, maddi, mənəvi və digər xarakterli dəstəyi əsasən özlərinə yaxın bildiyi şəxslərdə – dostlarında, qohumlarında, digər ailə üzvlərində, iş yoldaşlarında axtarırlar; təhsil səviyyəsi və zorakılığın tezliyi, intensivliyi arasında birbaşa sıx qarşılıqlı asılılıq yoxdur - təhsil səviyyəsinin aşağı olması digər amillərlə məcmu halda ailə-məişət zorakılığının formasına və xarakterinə, intensivliyinə təsir edə bilər.



3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təkmilləşdirilməsi üzrə: 22-ci fəslin (Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər) adının yeni redaksiyası: «Ailə-məişət münasibətləri əleyhinə cinayətlər» adlandırılması və bu fəslə bir sıra yeni maddələrin (ailə üzvünü özünü öldürmə həddinə çatdırma; ailə üzvü olan şəxsə (şəxslərə) əzab vermə; ailə üzvünə münasibətdə seksual xarakterli zorakı hərəkətlər və s.) əlavə edilməsi; Azərbaycan Respublikası CM-in 176-1-ci maddəsinə «valideynləri və yaxın qohumları tərəfindən nikaha daxil olmağa məcbur etmə» kimi yeni tövsifedici tərkibin daxil edilməsi; Azərbaycan Respublikası CM-in 171-ci maddəsinin (yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız hərəkətlərə cəlb etmə) CM-dən çıxarılması və bu əməllərə görə məsuliyyətin CM-in 243-cü maddəsində (fahişəliyə cəlb etmə) tövsifedici əlamət kimi nəzərdə tutulması;

4. Ailə-məişət zorakılığının qarşısının alınması və araşdırılması üzrə ixtisaslaşmış polis orqanının təsis olunması. Həmin strukturun əsasən qadın əməkdaş heyətindən ibarət olması məqsədəmüvafiqdir. Ailə-məişət zorakılığının araşdırılması ilə bilavasitə məşğul olan və əsasən qadınlardan təşkil olunan Daxili İşlər Nazirliyinin müvafiq bölmələri bilavasitə münaqişəli ailələrdə zorakılığın profilaktikasında effektiv rol oynamaqla yanaşı, bu cür ailələrin dağılmasının qarşısının alınmasına kömək edə bilər. İstər qısamüddətli, istərsə də uzunmüddətli mühafizə orderinin tətbiqində, ailədə münaqişənin dərinləşməsinə yol verməmək üçün qanunvericilikdə nəzərdə tutulmuş inzibati və digər tədbirlərin həyata keçirilməsinə qadın polislərin cəlb edilməsi daha effektiv hesab edilir.

5. Müəllifin qənaətinə görə ailə-məişət münasibətləri sahəsində törədilən zorakı cinayətlərin kriminoloji monitorinqinin (profilaktik fəaliyyətin informasiya-analitik əsası, cinayətkarlıqla mübarizə strategiyasının institusional-təşkilati sistemi) aparılması zəruridir. Bununla yanaşı, Azərbaycanda ailə-məişət zorakılığının qarşısının alınması işinin təşkili üzrə Dövlət Komissiyasının yaradılması və onun tərkibində sosioloq, psixoloq, kriminoloq və digər mütəxəssislər daxil olan işçi qrupların fəaliyyətə başlaması məqsədəuyğun sayıla bilər.

6. Ailə-məişət münasibətləri sahəsində baş verən zorakılığın xarakterik cəhətlərinə aid edilə bilər: fiziki zorakılıq artıq baş verdiyi təqdirdə, hər növbəti dəfə onun təkrarlanma tezliyi, intensivliyi və qəddarlıq dərəcəsi artır; zorakılıq və təhqiredici davranış bir daha baş verməyəcəyi barədə vədlərlə və üzrxahlıqla müşayiət olunur; münasibətlərə son qoymağa cəhd edilməsi zamanı qurban üçün təhlükənin eskalasiyası, zorakılığın kəskin, sıçrayışlı artımı baş verir; ailə-məişət münaqişəsi uzunmüddətli olduqda və getdikcə intensivləşdikdə ailə və digər qohumluq və ya qonşuluq münasibətində olan şəxslər arasında kriminal zorakılığa çevrilmə ehtimalı yüksəlir; ailə-məişət zorakılığı ailə, qohumluq, dostluq və qonşuluq çərçivəsində şəxsi ünsiyyət və münasibətlərlə bağlı törədilir; cinayətin mexanizmində zərərçəkənin və onun şəxsiyyətinin rolu əhəmiyyətlidir; cinayətin törədilməsinin konkret yeri qismində əsasən mənzil, yataqxana, kirayə tutulmuş ev və s. yer çıxış edir.

7. Məişət cinayətlərini səciyyələndirən kəmiyyət-keyfiyyət xarakteri daşıyan əlamətləri və xüsusiyyətləri qismində göstərilə bilər: ailə-məişət münasibətləri sahəsində baş verən və ailə üzvlərinə qarşı xüsusi amansızlıq və qəddarlıqla, şəxsiyyəti, insanın şərəf və ləyaqətini alçaltmaqla törədilən cinayətkar qəsdlərin xüsusi çəkisinin artması; məişət cinayətkarlığının strukturunda qəsdən sağlamlığa ağır və az ağır zərər vurma hallarının, qəsdən adam öldürmə cinayətlərinin xüsusi çəkisinin artması; məişət cinayətlərini törədənlərin arasında qadınların xüsusi çəkisinin artması; qadınlar tərəfindən törədilən qəsdən adam öldürmə və sağlamlığa ağır zərər vurma kimi ağır cinayətlərin sayının daha yüksək templərlə artması; məişət zəminində törədilən qəsdən adam öldürmə əməllərin daha da qəddarlaşması; məişət cinayətlərinin dinamikası ilə spirtli içkilərə aludəçilik və narkomaniya arasında müəyyən asılılığın izlənilməsi.

8. Müasir ailə-məişət cinayətkarlığını doğuran, ailə-məişət münasibətləri sahəsində kriminal əməllərin baş verməsinə şərait yaradan kriminogen amillərə, determinantlar kompleksinə əsasən aid edilə bilər: məişət sahəsində sosial-neqativ mikromühitin təsiri, məişət münasibətlərində münaqişəli vəziyyətlərin zorakılıqla həllinin mümkünlüyü haqqında təsəvvürlərin geniş yayılması, ailədaxili zorakılığın qurbanlarının özlərinin təhrikedici hərəkətləri, məişət cinayətlərinin əhəmiyyətli hissəsinin latentliyi, zərərçəkənlərin dözülən münasibəti.



**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işinin nəzəri və təcrübi baxımdan əhəmiyyəti əldə edilən nəticələrin, müdafiəyə təqdim edilən müddəaların, irəli sürülən və əsaslandırılan təkliflər və tövsiyələr kompleksinin aşağıdakı istiqamətlərdə istifadə edilməsinin mümkünlüyü ilə müəyyən olunur:

- bilavasitə sosial nəzarət orqanları, qeyri-hökumət təşkilatları tərəfindən ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin profilaktikasında;
- ailə-məişət münasibətləri sahəsində törədilən qəsdən adam öldürmə, sağlamlığa ağır və az ağır, habelə yüngül zərər vurma, xuliqanlıq və digər cinayətlərin cinayət-hüquqi və kriminoloji aspektlərdən tədqiqi və qarşısının alınması istiqamətində aparılacaq elmi araşdırmalarda;
- ali məktəblərin sosiologiya, psixologiya və hüquq fakültələrində, həmçinin DİN-in Polis Akademiyasında «Ailə-məişət zorakılığının kriminoloji xarakteristikası və profilaktikası» üzrə xüsusi kursların aparılmasında və s.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya tədqiqatının ümumiləşdirilmiş şəkildə verilmiş nəticələri, müdafiəyə təqdim edilmiş əsas elmi müddəalar, formulə edilərək əsaslandırılan təkliflər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən elmi nəşrlərdə məqalələr kimi dərc olunmuş, beynəlxalq elmi-praktiki konfranslarda məruzə edilmiş, həmçinin DİN-in Polis Akademiyasında aidiyyəti mövzuların tədrisində istifadə edilir.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi struktur etibarı ilə giriş, üç fəsil, nəticə, əlavə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **«Giriş»** hissəsində tədqiqat mövzusunun aktuallığı, problemin elmi işlənilmə dərəcəsi, monoqrafik tədqiqatın predmeti, obyekti, məqsədi və vəzifələri, normativ, metodoloji və empirik bazası, elmi yeniliyi, müdafiəyə təqdim olunan əsas müddəalar, dissertasiyanın elmi-təcrübi əhəmiyyəti, tədqiqat nəticələrinin aprobasiyası, habelə tədqiqat işinin strukturu göstərilmişdir.

Dissertasiyanın «**Ailə-məişət münasibətləri sahəsində zorakılıq sosial-hüquqi və kriminoloji problem kimi**» adlanan və dörd yarım-

fəsildən ibarət olan birinci fəslində ailə-məişət zorakılığının anlayışı, əlamətləri, növləri; beynəlxalq və milli səviyyədə ailə-məişət zorakılığı ilə mübarizənin hüquqi əsasları, habelə xarici ölkələrin qanunvericiliyində ailə-məişət zorakılığı probleminə müasir yanaşmalar kimi məsələlər kompleksi nəzərdən keçirilərək araşdırılmışdır.

Tədqiqatın «**Ailə-məişət zorakılığının anlayışı, əlamətləri, növləri**» adlanan ilk fəslinin birinci yarımfəslində ailə-məişət münasibətləri sahəsində törədilən zorakılığın növləri nəzərdən keçirilmiş, onların əlamətləri sistemləşdirilmiş, ailə-məişət cinayətkarlığın anlayışı dəqiqləşdirilmiş, bu növ cinayətlərin səciyyəvi xüsusiyyətləri göstərilmişdir. Dissertasiyanın bu yarımfəslində məişət zorakılığının «fiziki zorakılıq», psixi zorakılıq», seksual (cinsi) zorakılıq» və «iqtisadi zorakılıq» kimi növlərinin, ailə-məişət sahəsində törədilən cinayətlərin mahiyyət və məzmunu açıqlanmış, anlayışları dəqiqləşdirilmiş, onların səciyyəvi əlamətləri və formaları göstərilmişdir.

Kriminoloji nöqteyi-nəzərdən ailə zorakılığı aşağıdakı əlamətlərlə səciyyələnir: zorakı hərəkətləri daha çox qadınlara və uşaqlara münasibətdə törədilir; psixi və fiziki zorakılıq halları daha geniş yayılmışdır; təcavüzkarlar qismində yadlar deyil, qohumlar, yaxın adamlar çıxış edir; təhsil səviyyəsi və zorakılığın tezliyi, intensivliyi arasında sıx qarşılıqlı asılılıq yoxdur; ailədaxili zorakılıq təkrarlanmağa meyllidir və dövrü xarakter daşıyır.

Ailə-məişət münasibətləri sahəsində cinayətkar qəsdlərin bəzi fərqləndirici cəhətləri qismində məişət zorakılığının ailə, qohumluq, dostluq və qonşuluq çərçivəsində şəxsi ünsiyyət və münasibətlərlə bağlı törədilməsi; cinayətin baş vermə mexanizmində zərərçəkənin viktim davranışının da əhəmiyyətli rol oynaması; zorakılığın müxtəlif formalarının (fiziki, cinsi, psixoloji və iqtisadi) sistematik olaraq təkrarlanan epizodları; ailə-məişət münasibətləri zəminində münaqişənin mövcudluğu və bu münaqişənin bəzən uzunmüddətli xarakter daşıması; münaqişənin ailə və digər qohumluq və ya qonşuluq münasibətində olan şəxslər arasında kriminal zorakılığa çevrilməsi; cinayətin törədilməsinin konkret yeri qismində, mənzil, yataqxana, kirayə tutulmuş ev və s. yerin çıxış etməsi göstərilə bilər.

Müasir ailə-məişət cinayətləri ailə-məişət sahəsinin fiziki məkanında, yəni qeyri-istehsalat ərazisində və işdən kənar vaxtlarda törədilən, cinayətkar və zərərçəkən arasında qohumluq, qonşuluq və s. kimi ailə-



məişət əlaqələrinin mövcud olmasından irəli gələn və ailə-məişət münasibətlərinə xas olan motivasiyaya əsaslanan, son illərdə cəmiyyət üçün xarakterik olan səbəbiyyət kompleksi ilə determinə olunan həyat, sağlamlıq, cinsi toxunulmazlıq, şərəf və ləyaqət əleyhinə törədilən, fiziki, psixi, iqtisadi və cinsi zorakılıqla müşayiət olunmaqla cinayət məsuliyyəti doğuran əməllərdir.

Dissertasiya işinin bu fəslinin ikinci yarımfəsli «**Beynəlxalq səviyyədə ailə-məişət zorakılığı ilə mübarizənin hüquqi əsasları**» adlanır. Bu yarımfəsildə beynəlxalq universal təşkilatlar tərəfindən qəbul edilən bir sıra sənədlərin, o cümlədən BMT tərəfindən 1979-cu ildə qəbul edilən «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Konvensiyasının; «Uşaq hüquqları haqqında» 1989-cu il 20 noyabr tarixli BMT Konvensiyasının; BMT Baş Məclisinin 20 dekabr 1993-cü il tarixdə qəbul etdiyi «Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında» Bəyannaməsinin; 1995-ci ilin sentyabr ayında Pekində keçirilən və BMT-nin təsis olunmasının 50-ci ildönümünə həsr olunmuş 4-cü ümumdünya konfransında qəbul olunmuş Pekin Bəyannaməsinin (Pekin fəaliyyət platformasının); Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1996-cı ildə hazırlanmış «Məişət zorakılığı haqqında» model qanunvericilik aktının; 11 may 2011-ci ildə qəbul edilmiş və 1 avqust 2014-cü il tarixdə qüvvəyə minmiş Avropa Şurasının «Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında» Konvensiyasının (İstanbul Konvensiyası) müddəalarının, ayrı-ayrı normalarının müqayisəli-hüquqi təhlili həyata keçirilib. Məişət zorakılığı ilə mübarizə sahəsində dövlətlər və onların qanunvericilik sistemləri üçün olduqca vacib olan və əhəmiyyətli beynəlxalq sənədlər sırasında BMT tərəfindən 1996-cı ildə hazırlanmış «Məişət zorakılığı haqqında» model qanunvericilik aktı xüsusi olaraq qeyd olunmalıdır. Bu sənəddə məişət zorakılığı ailə-məişət münasibətləri sahəsində qadınlara qarşı törədilən fiziki, psixi və cinsi xarakterli zorakılıq kimi qiymətləndirilir. Model qanunvericiliyə uyğun olaraq təhqir, hədələmə, döymə, sağlamlığa zərər vurma ilə hədələmə, qorxutma, məcbur etmə, izləmə, evinə qanunsuz və ya zorla daxil olma, yaşayış evini yandırma, mülkiyyətə ziyan vurma, cinsi zorakılıq, nikahda zorlama, cinsi şikəst etmə, seksual istismar və s. hərəkətlər məişət zorakılığına aiddir.

Məişət zorakılığı ilə mübarizə sahəsində beynəlxalq təşkilatlar səviyyəsində qəbul edilmiş ən son konseptual sənədlərdən biri Avropa Şurasının «Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında» Konvensiyasıdır. İstanbul Konvensiyası adlanan bu beynəlxalq sənəd 11 may 2011-ci ildə qəbul edilmiş və 1 avqust 2014-cü il tarixdə qüvvəyə minmişdir. «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» 1979-cu il tarixli BMT Konvensiyasından fərqli olaraq, «İstanbul Konvensiyası ayrı-seçkiliyə məruz qalan subyektlərin dairəsini genişləndirir. Müdafiənin əsas subyektləri əlbəttə, qadınlardır, amma azyaşlılar, kişilər və yaşlılar da İstanbul Konvensiyası altında müdafiə olunma imkanı əldə edirlər. İstanbul Konvensiyası sazişin əhatə dairəsinə dair daha birmənalı və konkret terminləri ehtiva edir. İstanbul Konvensiyasında istifadə olunan «məişət» termini daha genişdir. İstanbul Konvensiyasında məişət zorakılığının fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıq hərəkətləri kimi növləri fərqləndirilməklə, bu zorakılığı törədən şəxslərin dairəsi göstərilir. Qeyd edilən Konvensiyanın 33-40-cı maddələrində iştirakçı-dövlətlərdə psixoloji zorakılıq (maddə 33), təcavüz məqsədilə təqib (maddə 34), zorlama da daxil olmaqla cinsi zorakılıq (maddə 36), məcburi nikah (maddə 37), məcburi abort və məcburi qısırlaşdırma (maddə 39), cinsi qısnama (maddə 40) kimi əməllərin kriminallaşdırılmasını təmin etmək üçün zəruri qanunvericilik və digər tədbirlərin görülməsi zəruriliyi təsbit edilib.

Dissertasiya tədqiqatının bu fəslinin «**Xarici ölkələrin cinayət qanunvericiliyində ailə-məişət zorakılığı probleminə müasir yanaşmalar**» adlanan üçüncü yarımfəslində ABŞ, Fransa, İspaniya, Almaniya, İtaliya, Polşa, İslandiya, Yaponiya, Çin, Norveç, İsveçrə, Bolqarıstan, Avstriya, İsveç, Belçika, Danimarka, Litva, Latviya, Moldova və s. kimi ölkələrdə məişət zorakılığı ilə bağlı əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin ayrı-ayrı normalarının, müddəalarının müqayisəli-hüquqi təhlili aparılıb. Müəyyən edilib ki, son 15 ildə dünyanın 100-ə yaxın ölkəsində ailə zorakılığından müdafiə haqqında xüsusi qanunlar qəbul edilmişdir. Hazırda uyğun qanunlar 120-dən artıq ölkədə qüvvədədir: ABŞ-da - Qadınlara münasibətdə zorakılıqla mübarizə haqqında 1994-cü il tarixli Federal qanun; Malayziyada - Ailə zorakılığı haqqında 1994-cü il tarixli qanun; Qırğızıstanda - Ailədə zorakılıqdan sosial-hüquqi müdafiə haqqında 2003-cü il tarixli qanun; Polşada – Ailədə zorakılığa qarşıdurma haqqında 2005-ci il tarixli kompleks qanun; Qanada – Ailə zorakılığı haqqında 2007-ci il tarixli qanun; Sloveniyada – Ailədə zorakılığın qarşısının alınması haqqında 2008-ci il tarixli qanun; Qazaxıstanda – Məişət zorakılığının profilaktikası haqqında 2009-cu il tarixli qanun; Böyük Britaniyada – Ailə zorakılığı, cinayətlər və cinayətlərin qurbanları haqqında 2004-cü il tarixli qanun və s. MDB ölkələrindən 2001-ci ildə Ukraynada, 2003-cü ildə Qırğızıstan Respublikasında, 2006-cı ildə Gürcüstanda, 2007-ci ildə Moldovada məişət zorakılığı ilə mübarizəyə istiqamətlənmiş qanunlar qəbul edilmişdir. Bir sıra xarici ölkələrin qanunvericiliyində (məsələn, Norveç, İspaniya, Fransa və s.) «Ailə zorakılığı» anlayışının definisiyalarına fiziki zorakılıqla yanaşı, həm də psixi və iqtisadi zorakılıq formaları da daxil edilmişdir. Psixi zorakılıqla bağlı əməllərin kriminallaşdırılması haqqında məsələ son illərdə daha intensiv şəkildə müzakirə olunur. Məsələn, uşağın uzun müddət zirzəmidə saxlanması onda qorxu hissinin yaranmasına səbəb olduğu hallarda bu, əməllərin kriminallaşdirilməsı müzakirə predmetinə çevrilmişdir. Bir sıra xarici ölkələrin qanunvericiliyində ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlər müstəqil tərkiblərdə verilir, cəza və sanksiyaların yeni çərçivələri və hüdudları müəyyən olunur. İspaniya, İsveç, Fransa, ABŞ cinayət qanunvericiliyində həyat yoldaşlarına, uşaqlarına, «yaxın» adamlar şərti kateqoriyasına daxil olan digər şəxslərə münasibətdə törədilmiş zorakı qəsdlərə görə daha yüksək cinayət məsuliyyətini nəzərdə tutan müddəalar təsbit edilmişdir.

Tədqiqat işinin birinci fəslinin «**Milli səviyyədə məişət cinayətkarlığı ilə mübarizənin hüquqi əsasları»** adlanan dördüncü yarımfəslində Azərbaycan Respublikasında məişət zorakılığı, ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərlə mübarizənin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənən qanunlar, digər normativ hüquqi aktlar təhlil edilmiş, onların mahiyyət və məzmunu açılmaqla əhəmiyyəti göstərilib.

Dissertasiyada 22 iyun 2010-cu il tarixdə qəbul edilmiş «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikası Qanununun qəbulunun böyük əhəmiyyət kəsb etdiyi göstərilmiş, yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınmasına, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsinə, hüquqi yardımla təmin edilməsinə, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırıl-

ması istiqamətində həyata keçirilən tədbirlərin müəyyən edildiyi və tənzimləndiyi qanunun bir sıra müddəalarının sistemli təhlili həyata keçirilmişdir.

24 iyun 2011-ci il tarixdə «Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu» qəbulu da məişət zorakılığı qurbanları üçün digər xüsusi icraatla bağlı məsələlərdə, hansı halda uzun müddətli mühafizə orderinin təyin olunmasına ehtiyac olduğunu şərtləndirmişdir.

Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli Qanunu ilə təsdiq edilmiş İnzibati Xətalar Məcəlləsində (İXM), «Məişət zorakılığının qarşısının alınması haqqında» Qanunda nəzərdə tutulmuş «məişət zorakılığı» ilə bağlı əməllərə görə məsuliyyət müəyyən edən iki inzibati xəta tərkibi (157 və 158-ci maddələr) nəzərdə tutulub.

Azərbaycan Respublikasının bir sıra digər normativ hüquqi aktları da ailə-məişət zorakılığı ilə bağlı müəyyən halları tənzimləyir. Onların sırasında aşağıdakıları qeyd etmək olar:

- Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Qanun (11 dekabr 1998). Bu qanunun 3-cü maddəsinin 2-ci bəndinə əsasən, məişət zorakılığının qurbanları «müdafiə olunan şəxslər» kimi qrupa aiddir. Qanunvericinin mövqeyinə görə məişət zorakılığının qurbanları barələrində təhlükəsizlik tədbirləri tətbiq olunan subyektlər sayılır.

Dissertasiya tədqiqatının bu hissəsi üzrə müəyyən edilib ki, Azərbaycan Respublikasında ailə-məişət zorakılığı ilə mübarizə, bu növ zorakılıq hallarının qarşısının alınması üzrə son illərdə ardıcıl və fasiləsiz işlər aparılmış, bu sahədə qanunvericilik bazasının formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Ailə-məişət münasibətləri sahəsində zorakılığın qarşısının alınması ilə bağlı Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktların təhlili göstərir ki, beynəlxalq hüquq normalarının milli qanunvericilikdə tam və əhatəli şəkildə təsbiti istiqamətində effektiv hüquq yaradıcılığı işi, məişət zorakılığı ilə mübarizə sahəsində səylərin gücləndirməsi və əlaqələndirilməsi istiqamətində çoxşahəli işlər davam etdirilməli və intensivləşdirilməlidir.

Dissertasiya işinin **«Ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin kriminoloji xarakteristikası»** adlanan və üç yarımfəsildən ibarət olan ikinci fəslində məişət cinayətkarlığının vəziyyəti, strukturu və dinamikasının statistik-kriminoloji təhlili aparılmış, bu növ kriminal əməllərin əsas meylləri, müasir məişət cinayətkarının, habelə bu növ cinayətlərdən zərərçəkənlərin şəxsiyyətinin kriminoloji xüsusiyyətləri müəyyən olunub. Tədqiqat işinin bu fəslində ailə-məişət münasibətləri sahəsində törədilən cinayətləri doğuran hallar, səbəb və şəraitlər, determinantlar kompleksi üzə çıxarılaraq sistemləşdirilib.

**«Azərbaycanda ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin kriminoloji mənzərəsi (vəziyyəti, strukturu, dinamikası, əsas meylləri)»** adlanan birinci yarımfəsildə 2010-2016-cı illərdə məişət zorakılığı nəticəsində baş vermiş cinayətlər haqqında rəsmi məlumatların statistik-kriminoloji analizi aparılıb. Kriminoloji təhlil bu illərdə ailə-məişət zorakılığı ilə bağlı cinayətkarlığın strukturunda qəsdən adam öldürmə, qəsdən sağlamlığa ağır az ağır və yüngül zərər vurma kimi kriminal əməllərin xüsusi çəkisinin daha yüksək olduğunu göstərir. Belə ki, 2016-cı ildə ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin ümumi sayında qəsdən adam öldürmənin xüsusi çəkisi 4,9%, adam öldürməyə cəhd 1,6%, qəsdən sağlamlığa ağır zərər vurma 3,2%, qəsdən sağlamlığa az ağır zərər vurma 7,6%, qəsdən sağlamlığa yüngül zərər vurma 80,2%, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə 0,4%, işgəncə vermə 0,6% təşkil etmişdir.

Bu növ cinayətlərin dinamikasını əks etdirən statistik məlumatların təhlili göstərir ki, 2010-cu illə müqayisədə, 2016-cı ildə qəsdən adam öldürmənin xüsusi çəkisi 2 dəfədən çox (2010 – 2,0%; 2016-cı il – 4,9%), qəsdən adam öldürməyə cəhd 3 dəfə (0,5% - 1,6%), qəsdən sağlamlığa ağır zərər vurma 3.3 dəfə (0,97% - 3,2%), qəsdən sağlamlığa az ağır zərər vurma 3 dəfə (2,54% - 7,6%), qəsdən sağlamlığa yüngül zərər vurmanın xüsusi çəkisi isə 5,9 dəfə (13,7% - 80,2%) artmışdır. Ailə-məişət zəminində törədilən cinayətlərin 97,5%-dən çoxu məhz adı çəkilən cinayətlərin payına düşür. Onların arasında isə əsas «pay» sağlamlığa az ağır və yüngül zərər vurma kimi cinayətlərinindir. Ümumiyyətlə son üç il üzrə statistik təhlil göstərir ki, ailə-məişət münaqişəsi zəminində baş verən cinayətlərin sayına görə Azərbaycanın rayonları arasında Abşeron (2014-2016-cı illərdə 89 hadisə), Masallı (66), Lənkəran (54), Şəmkir (53), Tərtər (50), Goranboy (48) rayonları «liderlik» edirlər.

**İkinci fəslin «Müasir məişət cinayətkarının şəxsiyyətinin əsas kriminoloji xüsusiyyətləri»** adlı ikinci yarımfəslində ailə-məişət

münasibətləri sahəsində cinayət törədənlərin, habelə bu cinayətlərin qurbanlarının sosial-demoqrafik, mənəvi-psixoloji və kriminoloji xarakteristikası verilib. Aparılmış tədqiqatlar ailə-məişət münaqişələri zəminində kriminal əməlləri törədənlərin şəxsiyyətinin aşağıdakı əsas tiplərini fərqləndirməyə imkan vermişdir:

- Aktiv kriminal tip. Səciyyəvi xüsusiyyətləri: şəxsiyyətin sosial yönəlişində neqativ ünsürlər daha üstün olmaqla inkişaf edir. Bu tip cinayətkarlar tərəfindən qəsdən adam öldürmə, qəsdən sağlamlığa ağır zərər vurma kimi cinayətlərin törədilməsi daha çox xarakterikdir.

- kriminal tip. Məişət zəminində cinayət törədənlərin bu tipinin şəxsiyyətin sosial yönəlişində neqativ ünsürlər zəif inkişaf etmələri ilə səciyyələnir və onlar tərəfindən daha çox sağlamlığa ağır və az ağır zərər vurma kimi cinayətlər törədilir.

- Kriminal-marginal (qeyri-sabit) tip. Marginal tiplər bir qayda olaraq məişət zəminində tamah-zorakı və zorakı cinayətləri alkoqol və ya narkotik sərxoşluq vəziyyətində törədirlər. Onlara şəxsiyyətləri üçün mənəvi-etik tənəzzül, həyatdan narazı olma və s. cəhətlər xasdır.

- Situativ tip. Məişət cinayətkarlarının bu tipinin səciyyəvi cəhətləri ondan ibarətdir ki, şəxsiyyətin sosial yönəlişində sabit və ya əhəmiyyətli dəyişmələr müşahidə edilmir, pozitiv və neqativ ünsürlər eynidir. Eyni zamanda onların inkişaf meyllərinin ziddiyyətli olduğu da qeyd edilir. Bu da kriminogenliyin azalmasına və ya artmasına gətirir. Təhlil edilən şəxslər cinayətin törədilməsi üçün qabaqcadan hazırlıq görmür, ailə münaqişəsinin gərginlik səviyyəsindən asılı olaraq qəsdən sağlamlığa yüngül zərər vurma kimi cinayət və ya inzibati xəta (məsələn, döymə və s.) törədir.

Dissertasiya tədqiqatının ikinci fəslinin «**Ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin determinantları**» adlanan üçüncü yarımfəslində ailədə zorakılığın kriminoloji amillərini sistemləşdirilməsində cinayətkarlığın səbəblərinin üç səviyyəli strukturundan istifadə olunub: 1) makrosəviyyə (ümumsosial xarakterli ziddiyyətlər); 2) mezosəviyyə (ailə ətrafı şəxsiyyətlərarası ünsiyyətində ziddiyyətlər); 3) mikrosəviyyə (fərdi davranışdakı ziddiyyətlər). Bu səviyyələrin hər biri üçün ayrı-ayrı amillər bloku xarakterikdir. Məsələn, makrosəviyyədə kriminogen amillərə daxildir: 1) ailə institutunun bilavasitə özünün ziddiyyətliyi; 2) ailə üzvləri arasında qarşılıqlı münasibətlərə, ayrıca götürülmüş fərdin baxış və yönəlişinə vasitəli, yəni dolayı təsir edən



sosial ziddiyyətlər; 3) ailə üzvləri arasında sosial rolların yenidən paylanması və s. ilə şərtlənən müasir ailə institutunun ciddi dəyişikliklərə uğraması; 4) qadınların ictimai istehsal prosesinə daha geniş şəkildə cəlb olunması; 5) ailə üzvlərinin maraqları, tələbatları, dəyərləri arasında münaqişələr; 6) ailə əxlaqı və etikası məsələləri üzrə ictimai rəyin formalaşmaması və s.

Tədqiqatın bu hissəsi üzrə müəyyən edilib ki, ailədə zorakı cinayətlərin törədilməsinə kömək edən səbəb və şəraitlər kompleksinin mühüm tərkib hissəsi qismində ailə ətrafındakı şəxsiyyətlərarası ünsiyyətlərdə ziddiyyətlər çıxış edir (mezosəviyyəli amillər). Ailə münaqişəsi şəxsiyyətlərarası qarşıdurmanın xüsusi halıdır və onun mahiyyəti ailənin ayrı-ayrı üzvlərinin bir-birinə zidd mövqelərinin toqquşmasından ibarətdir. Ailə həyatında ziddiyyətlərin olması, «maraqları tam üst-üstə düşə bilməyən bir neçə adamın ailədə birləşməsi faktının özü ilə şərtlənmişdir. Müəllifin qənaətinə görə hətta ən kəskin ailə münaqişəsi bu zəmində zorakı cinayətlərin qaçılmaz olaraq baş verməsi demək deyildir. Burada baş verən cinayət konkret həyat şəraitinin və şəxsiyyətin psixofizioloji xassələrinin qarşılıqlı təsir nəticəsidir.

Ailədə zorakılıq ər-arvadın təhsilindən daha çox, onların təhsil səviyyələri arasındakı fərqlə əlaqədardır. Ailədə zorakılıq hallarının sayı kişilərin təhsil səviyyəsinin yüksəlməsi ilə əhəmiyyətli dərəcədə dəyişir. Daha yüksək təhsilli kişilərə (16,3%) nisbətən orta təhsilli kişilər zorakılığa, xüsusən də fiziki zorakılığa daha çox meyllidir (25,1%). Bir qayda olaraq ailə üzvləri arasında ziddiyyətlər ailəyə başçılıq etmək, ailə büdcəsini bölmək (xərcləmək), ev üzrə vəzifələri yerinə yetirmək, uşaqları tərbiyə etmək, yaşlı nəsillə qarşılıqlı münasibətlər və s. ilə bağlı yaranır. Digər tərəfdən, ailə təşkilatının üzvləri fərdi avtonomluğa – ailənin təsirindən təcrid olunmuş şəxsi həyat hüququna can atırlar (xarici təsirlər), şəxsi müstəqilliyə yönələn bu cür hərəkətlər bir qayda olaraq digər ailə üzvlərində narazılıqlar yaradır ki, bu da münaqişəli vəziyyəti doğura bilər.

Cinayət işlərinin materiallarının seçmə tədqiqi nəticələri kriminal ailə münaqişəsinin qısqanclıq (27%), xəyanət (15%), təqsirkarın sərxoşluğu, əxlaqa və qanunazidd davranışı (13%), zərərçəkənin sərxoşluğu, əxlaqa və qanuna zidd davranışı (16%), ailə üzvlərinin qarşılıqlı aqressivliyi (19%), əmlak və pul mübahisələri (9,5%), uşaqların tərbiyəsinə müxtəlif baxışlar (6%), üzərilərinə düşən təsərrüfat-məişət vəzifələrinin

yerinə yetirməmələri (11%) və s. amillərin təsiri nəticəsində baş verdiyini göstərir.

Dissertasiya işinin **«Ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərlə mübarizədə ümumsosial tədbirlər və xüsusi-kriminoloji profilaktika»** adlanan və iki yarımfəsildən ibarət olan üçüncü fəsildə ailə-məişət münasibətləri sahəsində cinayətlərin qarşısının alınmasında ümumsosial və xüsusi-kriminoloji profilaktika ilə bağlı məsələlər sistemli şəkildə araşdırılmış, bu növ kriminal əməllərin qabaqlanmasına istiqamətlənən tədbirlər kompleksi təklif edilmişdir. Bu **fəslin «Ailə-məişət münasibətləri sahəsində cinayətlərin ümumsosial profilaktikası» adlanan birinci yarımfəslində** göstərilir ki, cinayətkarlığa qarşıdurma sistemində ümumsosial profilaktik tədbirlərin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Cinayətkarlığın bir növü kimi ailə-məişət sahəsində zorakı cinayətkarlıq, cəmiyyətin iqtisadi, sosial, ideoloji və s. vəziyyətini əks etdirir. Bunu nəzərə alaraq, yaxın qohumlara və digər ailə üzvlərinə münasibətdə törədilən zorakı cinayətlərin qarşısının alınması digər tədbirlərlə yanaşı, həm də bu növ cinayətkarlığın profilaktikasının ümumsosial tədbirlərinə əsaslanmalıdır.

Ailə-məişət münasibətləri sahəsində törədilən zorakı cinayətlərin profilaktikasının ümumsosial tədbirlərinə şəxsiyyətlərarası münasibətlərdə mənəviyyatlığın təmininə və mədəni səviyyənin yüksəldilməsinə, insanların birgəyaşayış əsaslarına və cəmiyyətin mənəviyyat postulatlarına, şəxsiyyətin hüquq və azadlıqlarına, toxunulmazlığına hörmət ruhunda tərbiyə edilməsinə, zorakılıqla bağlı istənilən təzahürlərə dözümsüzlük ruhunda hüquqi tərbiyəyə istiqamətlənmiş kompleks tədbirləri aid etmək olar.

Ailə-məişət münasibətləri sahəsində zorakı cinayətkarlığın qarşısının alınmasının ümumsosial tədbirləri sırasında xüsusi olaraq qeyd edilə bilər:

- sosial-iqtisadi problemlərin həllinə istiqamətlənmiş normativ-hüquqi bazanın yaradılması, qanunların və digər normativ hüquqi aktların mövcud sosial-iqtisadi və hüquqi münasibətlər, müasir şərait nəzərə alınmaqla təkmilləşdirilməsi;

- yeni nəslin insan həyatının böyük önəm kəsb etməsi, yaxınlarına qayğı, rəhmdillik, şəxsiyyətlərarası münasibətlərdə vicdanlılıq, sadiqlik, hərəkət və davranışlarında məsuliyyət hissi ruhunda tərbiyə edilməsinə istiqamətlənmiş mənəvi-psixoloji abı-havanın, əxlaqi dəyərlər sisteminin yaradılması;

- yeniyetmələrin düzgün cinsi tərbiyəsi; ailədə şəxsiyyətlərarası münasibətlər sahəsində və digər sosial-psixoloji problemlərlə bağlı «qaynar xətlərin», sosial-psixoloji reabilitasiya, resosializasiya və adaptasiya üzrə xüsusi xidmətlərin, məsləhətxanalar şəbəkəsinin yaradılması və s.

Dissertasiya tədqiqatının «**Ailə-məişət münasibətləri sahəsində cinayətlərin xüsusi-kriminoloji profilaktikası»** adlanan sonuncu yarımfəslində müasir məişət zorakılığının qarşısının alınmasında xüsusi-kriminoloji tədbirlərin vacibliyi qeyd edilmiş, zəruri tədbirlər kompleksi təklif edilib. Həmin istiqamətdə aşağıdakı profilaktik tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiqdir:

- ailəyə dəstək üzrə kompleks proqramların işlənib hazırlanması və ailə münasibətləri sahəsində törədilən hüquqpozmaların qarşısının alınması üzrə xüsusi strukturların yaradılması;

- bilavasitə ailə münaqişələrinin qarşısının alınması məsələləri üzrə ixtisaslaşan mütəxəssislərin (kriminofamilistika sahəsində hüquqşünas-kriminoloqların, psixoloqların, peşəkar tibb və sosial xidmət işçilərinin, polis əməkdaşlarının) hazırlığı və ixtisaslarının artırılması işinin təkmilləşdirilməsi;

- ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dövlətin maliyyə dəstəyi vasitəsilə vətəndaş cəmiyyətinin profilaktik fəaliyyətdə iştirakı hallarının genişləndirilməsi, vətəndaş təşəbbüsünün təşviq edilməsi;

- cəmiyyətdə və ailədə zorakılığın bütün formalarının qınanılması istiqamətində dövlətin informasiya siyasətinin yenidən qurulması, kütləvi informasiya vasitələrində tolerant davranışın, qeyri-zorakı həyat tərzinin təbliği və s.

Dissertasiya işinin **«Nəticə»** hissəsində tədqiqat üzrə aşağıdakı əsas nəticələr, konkret tövsiyələr və elmi-praktik təkliflər öz əksini tapmışdır:

- ailəyə dəstək üzrə kompleks proqramların işlənib hazırlanması və bu proqramlar çərçivəsində ailə münasibətləri sahəsində cinayətlərin və hüquq pozuntularının qarşısının alınması üzrə xüsusi strukturların nəzərdə tutulması;

- ailə münaqişələrinin bilavasitə qarşısının alınması məsələləri üzrə ixtisaslaşan mütəxəssislərin hazırlığı və ixtisaslarının artırılması

işinin təkmilləşdirilməsi; ailəyə sosial-psixoloji (fərdi və qrup terapiyası) və sosial-hüquqi (sosial vəkillik) yardım üzrə xidmətlərin yaradılması;

- ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dövlətin maliyyə dəstəyi vasitəsilə vətəndaş cəmiyyətinin profilaktik fəaliyyətdə iştirakı hallarının genişləndirilməsi, vətəndaş təşəbbüsünün (məsələn, qonşular assosiasiyalarının, özünədəstək üzrə qrupların və s.) yeni formalarının yaradılmasının təşviq edilməsi;

- cəmiyyətdə və ailədə zorakılığın bütün formalarının qınanılması istiqamətində dövlətin informasiya siyasətinin yenidən qurulması, kütləvi informasiya vasitələrində tolerant davranışın, qeyri-zorakı həyat tərzinin təbliği və s.

Müəllifin qənaətinə görə qüvvədə olan Cinayət Məcəlləsinin 61-ci maddəsinə (Cəzanı ağırlaşdıran hallar) «ailə üzvünə qarşı zorakı xarakterli cinayətin törədilməsi» bəndinin əlavə edilməsi məqsədəuyğundur.

Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə CM-in 133-cü maddəsinə xüsusi bəndin əlavə edilməsi və bu əmələ görə azadlığın məhdudlaşdırılması kimi cəzanın nəzərdə tutulması neqativ təsirlərin azalmasına köməklik göstərər.

Qüvvədə olan Cinayət Məcəlləsi ilə təsbit olunan həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan bir sıra cinayətlərə görə məsuliyyət müəyyən edən cinayət tərkiblərinə ailə-məişət zorakılığı ilə bağlı məsuliyyət nəzərdə tutan tövsifedici əlamətlərin daxil edilməsi məqsədəuyğundur. Belə əlavələr cinayət təqibi prosesində eyni əlamətli, lakin ailə-məişət münasibətləri zəminində baş verən cinayətlərə fərqli yanaşmanı (o cümlədən cəza sanksiyası ilə bağlı) müəyyən etməklə, məişət zorakılığının qarşısının alınması effektivliyi artıra bilər. Məişət zorakılığı ilə bağlı cinayətlərin tövsifedici əlamətlərinin daxil edilməsi ilə yanaşı bu əlamətlər üzrə cəzaların müəyyən edilməsində də fərqli yanaşmalar olmalıdır. Ümumi əsaslarla müəyyən olunan cəzalarla yanaşı, məişət zorakılığı ilə bağlı baş verən cinayətlərə görə digər hüquqi təsir tədbirlərinin də tətbiqi effektiv sayıla bilər. Bu prosesdə səlahiyyətli subyekt tərəfindən hüquq tətbiqetmə fəaliyyətində ailənin mənafeyi əsas götürülməlidir. Digər hüquqi təsir tədbirləri sırasına ailə-məişət münasibətləri zəminində cinayət törətmiş şəxslərin icbari sosial-psixoloji reabilitasiya kursları, zəruri hallarda isə narkomaniya və alkoqolizmdən məcburi müalicə keçmə kimi öhdəliklər aid edilə bilər.



Cinayət Məcəlləsinin 176-1 maddəsinə qadını nikaha məcbur etmə halının olub olmamasından asılı olmayaraq erkən nikahlarla bağlı valideynlərin məsuliyyətini və cəzanı müəyyən edən müddəanın əlavə edilməsi məqsədəuyğun olardı. Qeyd olunanlarla yanaşı, Cinayət Məcəlləsində «təcavüz məqsədilə təqib»; «məcburi abort və qısırlaşdırma», cinsi qısnama» kimi əməllərə görə də cinayət məsuliyyətinin nəzərdə tutula bilər. Qüvvədə olan cinayət-prosessual qanunvericiliyində bərpaedici ədalət mühakiməsinin əsaslarının inkişaf etdirilməsi üçün ilkin şərtlər mövcuddur. Bu şərtlər daha da inkişaf etdirilməli, xüsusi barışıq prosedurarı və alqoritmləri işlənib hazırlanmalı və onların işlək mexanizmlərlə təmin olunması reallaşdırılmalıdır.

Ailə zorakılığı ilə mübarizə sahəsində cinayət qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə həmçinin təklif olunur:

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 22-ci fəslinin adının dəyişdirilərək «Ailə-məişət münasibətləri əleyhinə cinayətlər» adlandırılması və bu fəslə bir sıra yeni maddələrin (ailə üzvünü özünü öldürmə həddinə çatdırma; ailə üzvü olan şəxsə (şəxslərə) əzab vermə; ailə üzvünə münasibətdə seksual xarakterli zorakı hərəkətlər və s. ) əlavə edilməsi;

- Azərbaycan Respublikası CM-in 176-1-ci maddəsinə «valideynləri və yaxın qohumları tərəfindən nikaha daxil olmağa məcbur etmə» kimi yeni tövsifedici tərkibin daxil edilməsi; CM-in 170-ci maddəsinin (yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə) CM-dən çıxarılması və bu halın məsuliyyəti ağırlaşdıran hal kimi CM-in 61-ci maddəsində nəzərdə tutulması; CM-in 171-ci maddənin (yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız hərəkətlərə cəlb etmə) CM-dən çıxarılması və bu əməllərə görə məsuliyyətin CM-in 243-cü maddəsində (fahişəliyə cəlb etmə) tövsifedici əlamət kimi nəzərdə tutulması; CM-in 171-1-ci maddənin (uşaq pornoqrafiyasının dövriyyəsi) CM-dən çıxarılması və bu kimi əməllərə və hərəkətlərə görə məsuliyyətin CM-in 242-ci maddəsində (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) xüsusilə ağırlaşdırıcı hal kimi nəzərdə tutulması

Bir sıra xarici ölkələrin təcrübəsi (İspaniya, ABŞ, Kanada, Böyük Britaniya, Avstriya) nəzərə alınmaqla bu növ cinayətlərə və hüquqpozmalara baxan xüsusi məhkəmələrin – ailə məhkəmələrinin yaradılması da məqsədəmüvafiq sayıla bilər. Ailədaxili zorakılıq hallarının uçotu üzrə informasiya-analitik bazanın yaradılması və inkişaf etdirilməsi diqqət mərkəzində olmalıdır. Qeyd olunan informasiya-analitik iş yalnız hərtərəfli və kompleks elmi-tədqiqat bazası və mükəmməl təşkilati-texniki təminat əsasında aparılmalıdır. Həmçinin bu sahədə fəaliyyətə peşəkar kadrların – sosioloqların, kriminoloqların, psixoloqların cəlb edilməsi mühümdür. Hazırda cinayətkarlığın statistik uçot formalarında cinayətdən zərərçəkən və cinayətkar arasındakı qarşılıqlı münasibətlər (qohumluq, ər-arvad münasibətləri və s.) haqqında məlumatlar öz əksini tapmır. Bu da bir çox cəhətdən ailədaxili zorakı cinayətlərin yayılması ilə bağlı obyektiv məlumatların alınmasını xeyli çətinləşdirir.

Fikrimizcə, məişət zorakılığı ilə bağlı hüquqpozmalar haqqında məlumatları özündə cəmləşdirən statistik hesabat sisteminin konseptual əsaslarına yenidən baxılması və təkmilləşdirilməsi zərurəti mövcuddur. Bu məlumatların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Baş prokurorluq, Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi, tabeçiliklərində ailədaxili zorakılıq hallarının sosial-hüquqi müdafiəsi üzrə sosial xidmətlər olan digər dövlət orqanları, həmçinin qeyri-hökumət təşkilatlarının hesabatları əsasında Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən toplanılması və ümumiləşdirilməsi daha məqsədəmüvafiq sayıla bilər. Ailə-məişət zorakılığına effektiv qarşıdurmanın təmini aidiyyəti hüquq-mühafizə, sosial-psixoloji xidmət və digər dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi ilə mümkün ola bilər. Bu məsələnin həlli üçün məişət zorakılığının qarşısının alınması işinin təşkili üzrə Dövlət Komissiyasının təsis edilməsi və onun nəzdində işçi qrupların yaradılması məqsədəuyğun sayılır. Həmin Komissiya bu sahədə koordinator qismində çıxış etməli, ailə-məişət zorakılığının profilaktikası üzrə kompleks ümumdövlət və regional proqramlarının və fəaliyyət planlarının ayrı-ayrı profilaktika subyektləri tərəfindən reallaşdırılmasına effektiv nəzarəti təmin etməlidir.

Dissertasiyanın əsas məzmunu **müəllifin** aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:



1. “Ailə-məişət münasibətləri sahəsində törədilən cinayətlərin kriminoloji xarakteristikası və profilaktikasının bəzi aktual məsələləri”. Polis Akademiyasının Elmi Xəbərlər, № 4 (12). Bakı-2014. s.55-63

2. “Некоторые криминологические особенности семейно-бытового насилия” Наука и жизнь Казахстана. Международный научно-популярный журнал № 6 (33) 2015. с.16-22.

3. “Beynəlxalq və milli səviyyədə məişət cinayətkarlığı ilə mübarizənin hüquqi əsasları”. Polis Akademiyasının Elmi Xəbərlər, № 1-2 (13). Bakı-2015. s.68-79.

4. “Məişət zorakılığı anlayışı və onun profilaktikası haqqında”. Polis Akademiyasının Elmi Xəbərlər, № 3-4 (16). Bakı-2016. s.42-45.

5. “Xarici ölkələrin cinayət qanunvericiliyində ailə-məişət zorakılığı probleminə müasir yanaşmalar”. Polis Akademiyasının Elmi Xəbərlər, № 1 (17). Bakı-2017. s.42-50.

6. “Ailə-məişət cinayətkarlığının kriminoloji xüsusiyyətlərinin tədqiqinin bəzi aspektləri”. Polis Akademiyasının Elmi Xəbərlər, № 2, 2017. Bakı-2017.s.35-39.

7. “Семейно-бытовое насилие как нарушение прав человека: международные и национальные меры противодействия” Azərbaycan Konstitusiyasının 19-cu ildönümü-İnsan hüquq və azadlıqlarının təminatının aktual problemləri BEPK-materialları Bakı, 2016. s.156-171.

8. “Семейно-бытовое насилие: социально-криминологические аспекты”. Ailə-məişət zorakılığının sosial-psixoloji, cinayət-hüquqi və kriminoloji problemləri. Beynəlxalq elmi-praktik konfrans materialları. Bakı, 2016. s.224-239.

9. “Məişət zorakılığı sahəsində baş verən cinayətlərin bəzi determinantları haqqında”. Nəqliyyat hüququ, № 3, 2017.s.142-149.

10. “Məişət zorakılığının qarşısının alınması sahəsində milli hüquqi tənzimləməyə dair”. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elmi və təhsilin əsas inkişaf tendensiyaları” mövzusunda BEPK materialları. Bakı, 1-2 iyun 2017-ci il.s.204-206.

11. “Нормативно-правовое регулирование устранения семейно-бытового насилия на примере некоторых зарубежных стран”. Журнал Гражданин и право № 12, 2017 г. с.21-24.

12. “Ailə-məişət zorakılığının qarşısının alınmasında xüsusi-kriminoloji profilaktikanın rolu haqqında”. “Nəqliyyat hüququ” elmi-nəzəri, təcrübi jurnal, 2018-ci il, № 1, səh.133-138.

## SUMMARY

The dissertation of Narmin Aliyeva on the topic "Criminal and Criminological Aspects of Crimes in the Sphere of Family and Household Relations", presented for a Ph.D. degree in law by specialty "5611.01 - Criminal Law and Criminology; criminal-executive law "is an independent and completed research work, which has scientific novelty. The thesis is devoted to the scientific-theoretical, organizational-methodological, methodological and practical aspects of studying criminally-legal and criminological aspects of crimes in the sphere of family-household relations. The main goal of the thesis is the criminological investigation of various forms and of modern family and household press tupeness, which has become in recent years one of the main elements of the structure of crime, a scientific and criminological analysis of the causes, conditions and determinants of criminal acts committed on family and household soil, the identification of socio-psychological and criminological features of the personality of persons who have committed a crime in the sphere of family and household relations, as well as the victimization characteristics of persons who have suffered from this type of crime. The thesis consists of an introduction, three chapters, conclusion, additions and a list of used literature.

In introduction the urgency of the chosen theme, a degree of its scientific research, the purpose and a problem, methodological and theoretical bases of research, its novelty, the basic theses, theoretical and practical value of work are determined.

In Chapter I - "Violence in the sphere of family and household relations as a social, legal and criminological problem", the concept, signs, types of family and domestic violence were comprehensively examined and explored; as well as modern approaches to the problem.

In Chapter II - "Criminological characteristics of crimes committed in the sphere of family and household relations", a statistical and criminological analysis of the state, structure and dynamics of domestic crimes was carried out, the main trends of these criminal acts were identified, the criminological features of the offender and the identity of the victim from this type of crime were revealed.

In Chapter III - "General social measures and special-criminological prevention in the fight against crimes in the field of family and domestic violence", consisting of two paragraphs, in a systematic form issues related to general social and special-criminological prevention were investigated, a set of measures for the suppression of data criminal acts.

Conclusion of the thesis includes main outcomes of the research and puts forward specific recommendations as well as scientific and practical proposals.





## РЕЗЮМЕ

Диссертация Нармины Назим гызы Алиевой на тему «Уголовно-правовые и криминологические аспекты преступлений в сфере семейно-бытовых отношений», представленная на соискание учёной степени доктора философии по праву по специальности «5611.01 – Уголовное право и криминология; уголовно-исполнительное право» является смостоятельной и завершённой научно- исследовательской работой, обладающей научной новизной. Диссертация посвящена научно-теоретическим, организационно-методическим, методологическим и практическим аспектам изучения уголовно-правовых и криминологических аспектов преступлений в сфере семейно-бытовых отношений. Основной целью диссертационной работы является криминологическое исследование различных форм и видов современной семейно-бытовой преступности, научно-криминологический анализ причин, условий и детерминантов криминальных деяний, совершённых на семейно-бытовой почве, выявление криминологических особенностей личности лиц, совершивших преступление в сфере семейно-бытовых отношений, а также представление виктимологической характеристики лиц, потерпевших от данного вида преступлений. Диссертационная работа состоит из введения, трёх глав, заключения, дополнений и списка использованной литературы.

Во «Введении» раскрыты актуальность темы, объект, предмет, цели и задачи, методологические основы исследования, научная новизна темы, основные положения, выносимые на защиту, теоретическое и практическое значение, эмпирическая база исследования, а также структура диссертации.

В главе I - «Насилие в сфере семейно-бытовых отношений как социально-правовая и криминологическая проблема» комплексно рассмотрены и исследованы понятие, признаки, виды семейно-бытового насилия; а также сов-ременные подходы к проблеме.

В главе II - «Криминологическая характеристика преступлений, совершенных в сфере семейно-бытовых отношений», проведён криминологический анализ состояния, структуры и динамики бытовых преступлений, определены основные тенденции данных криминальных деяний, выявлены криминологические особен ности правонарушителя и личности потерпевшего от подобного вида преступлений.

В главе III - «Общесоциальные мероприятия и специально-криминологическая профилактика в борьбе с преступлениями в сфере семейно-бытового насилия» в системном виде исследованы вопросы, связанные с общесоциальной и специально-криминологической профилактикой, предложен комплекс мероприя тий относительно пресечения данных криминальных деяний.

В заключении диссертации подводятся основные итоги исследования, а также отражены конкретные рекомендации и научно-практические предложения.